**Pestisid və aqrokimyəvi maddələrin dövriyyəsi ilə bağlı keçirilən monitorinqə dair məlumat**

**(yanvar-mart 2026)**

Pestisid və aqrokimyəvi maddələrin istehsalı, saxlanması, satışı və tətbiqinə nəzarət məqsədilə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən monitorinq keçirilib.

Nazirlər Kabineti yanında yaradılmış "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası"nın 2025–2026-cı illər üzrə İş Planına uyğun olaraq, **203** obyektdə monitorinq aparılıb.

Monitorinq zamanı müəssisələrin texniki təhlükəsizlik və sanitariya-gigiyena tələblərinə uyğunluğu qiymətləndirilib, şübhəli məhsul partiyalarından nümunələr götürülərək laborator müayinələrə cəlb edilib, eyni zamanda qeydiyyatsız, tərkibi qadağan edilmiş, hermetikliyi pozulmuş və istifadə müddəti bitmiş preparatların dövriyyəyə buraxılmasının qarşısı alınıb.

Belə ki, **2026**-cı ilin ilk **3** ayı ərzində aparılmış monitorinq və yoxlamalar zamanı ümumilikdə **43** müəssisədə istifadəyə yararsız **146** adda (805,5 kq/litr) pestisid və **62** adda (3602,5 kq/litr) aqrokimyəvi maddə aşkar edilərək İnventarlaşdırma Komissiyasının müvafiq qərarlarına əsasən, xüsusi poliqonlara göndərilib və təhlükəsiz şəkildə zərərsizləşdirilməsi təmin olunub.